# GÖRKƏMLİ ƏDƏBİYYATŞÜNAS VƏ İCTİMAİ XADİM



**Akademik, Əməkdar elm xadimi, AMEA-nın vitse-prezidenti, filologiya elmləri doktoru, professor İsa Həbibbəyli Azərbaycan ədəbiyyatşünaslığında və ictimai fikir tarixində mühüm yeri tutan, elmimizə sanballı töhfələr verən görkəmli şəxsiyyətlərimizdəndir. Böyük ədəbiyyatşünas alim, tanınmış ədəbiyyat tarixçisi və nəzəriyyəçisi elmi araşdırmaları ilə Azərbaycanda xalqımızın mənəvi dəyərlərinin inkişaf etdirilməsinə, ictimai fikrin əsas problemlərinin araşdırılıb ümumiləşdirilməsinə yeni istiqamət gətirmişdir.**

**1964-cü ildən, orta məktəbin son siniflərində gənc İsa Həbibbəylinin ilk mətbu qələm təcrübələri nəşr olunmuşdur.**

Akademik İsa Həbibbəylinin ilk kitabı 1984-cü ildə nəşr olunmuş “Romantik lirikanın imkanları” monoqrafiyasıdır. Sonrakı kitablarında - “Ədəbiyyat nəzəriyyəsi” (1985), “XX əsr Azərbaycan yazıçıları” (1992), “XX əsrin əvvəlləri Azərbaycan yazıçıları” (2004), “Ədəbi-tarixi yaddaş və müasirlik” (2007), “Ədəbi şəxsiyyət və zaman” (2017) kimi elmi əsərlərində tədqiqatlarını davam etdirir. Milli ədəbiyyat tarixində romantizm, realizm, postmodernizm, magik realizm ədəbi cərəyanlarının müstəsna yerinin müasirlik səviyyəsində dərk olunmasında akademikin ardıcıl araşdırmaları davam edir. Məhz buna görə də akademik İsa Həbibbəyli bu gün Azərbaycan ədəbiyyatşünaslığında “ədəbi cərəyanlar” nəzəriyyəsi üzrə aparıcı mütəxəssisdir. İsa Həbibbəylinin “Ədəbiyyat nəzəriyyəsi” kitabındakı çoxsaylı təriflər, sxemlər və bölgülər də onun həmin istiqamətdə nəzərə çarpan fəaliyyətinin göstəriciləridir.

Alimin yaradıcılığının bütün dövrlərində böyük ədib Cəlil Məmmədquluzadə ilə bağlı araşdırmalarına xüsusi önəm verilmişdir. İsa Həbibbəyli Cəlil Məmmədquluzadənin nəsil şəcərəsini ilk dəfə olaraq tədqiq edib hazırlamış və onu ədəbi ictimaiyyətə çatdırmışdır. Azərbaycan ədəbiyyatında Cəlil Məmmədquluzadə külliyyatının ən sanballı və dolğun nəşri İsa Həbibbəylinin yaradıcılığı ilə bağlıdır. O, çoxillik axtarışlarının nəticəsi olaraq yazıçının 4 pərdəli “Ər” pyesini, kiçikhəcmli “Lənət” və “Oyunbazlar” səhnəciklərini arxivlərdən üzə çıxarmış, onun elmə məlum olmayan satirik şeirlərini, 35 məqaləsini, 170 felyetonunu ilk dəfə görkəmli yazıçının 2004-cü ildə nəşr edilmiş dördcildlik külliyyatına daxil edərək oxuculara çatdırmışdır. Çoxcildlikdə böyük ədibin özünün və ailə üzvlərinin, digər tanınmış şəxsiyyətlərin elmi ictimaiyyətə bəlli olmayan məktubları, habelə elmi-ədəbi və publisist xarakterli sənədləri və yazıları dərc edilmişdir. Bütövlükdə, akademik İ.Həbibbəyli böyük demokrat yazıçı C.Məmmədquluzadənin əsərlərini bir neçə dəfə ayrıca kitab halında çap etdirmiş, həmin kitablara sanballı müqəddimələr, izahlar yazaraq ədəbiyyatşünaslıq elmini zənginləşdirən mənbələrə çevirmişdir. Bugün bizim ədəbiyyatşünaslıqda, yüz ildən çox yaşı olan Cəlil Məmmədquluzadə irsinin tədqiqinin son mərhələsi və ən böyük uğurları akademik İsa Həbibbəylinin adı ilə bağlıdır. “Cəlil Məmmədquluzadə və mühiti” əsərində ədəbiyyatşünaslığımıza yeni bir istiqamət gətirmiş, həm özünəqədərki köklü postulatlarını (Mirzə Cəlil realizmi və Molla Nəsrəddinçiliklə bağlı) dərinləşdirməyə nail olmuş, həm də əsasını qoyduğu “mühitşünaslığ”ın işığında Mirzə Cəlil irsinin qaranlıq qatlarını açmışdır. Akademik İsa Həbibbəylinin hazırladığı dördcildlik Cəlil Məmmədquluzadə külliyyatının ən mükəmməl nəşri hesab olunur. Görkəmli alim şəxsi təşəbbüsü ilə Cəlil Məmmədquluzadənin əsərləri Misirdə ərəb dilində, Pakistanda urdu dilində, Macarıstanda, Litvada, Gürcüstanda və Özbəkistanda yazıçı haqqında müqəddimələrlə birlikdə tərcümə etdirib kitab halında nəşr etdirmişdir. Akademik İsa Həbibbəyli “Molla Nəsrəddin” jurnalı, mollanəsrəddinçilik məktəbi və realizm ədəbi cərəyanının öyrənilməsində də sanballı tədqiqatçıdır. “Ədəbi yüksəliş” (1985), “Mirzə Ələkbər Sabirin həyatı və yaradıcılığının əsas tarixləri” (1987) kitabları ilə yanaşı, “Əliqulu Qəmküsar: taleyi və sənəti” (2011), “Məmməd Səid Ordubadi: Həyatım və mühitim” (2012), “Eynəli bəy Sultanov. Publisistika (rus dilində)” (2016), “Eynəli bəy Sultanov. Məqalələr” (2017) və s. əsərlərin müəllifidir.

İsa Həbibbəylinin yaradıcılığında ədəbi növlərin və janrların yenidən təsnif edilməsi, satiranın müstəqil ədəbi cərəyan kimi təqdim olunmasına dair tədqiqatları da onun ədəbiyyat nəzəriyyəçiliyi istiqamətindəki fəaliyyətinin göstəriciləri kimi diqqəti cəlb edir. Bununla yanaşı, İsa Həbibbəylinin “Azərbaycan ədəbiyyatı: dövrləşdirmə konsepsiyası və inkişaf mərhələləri” (Bakı, Elm, 2019) tədqiqatı da nəzəriyyəçi təfəkkürü ilə yazılmış tədqiqat işi kimi bu aktual problemi ilk dəfə sistemli şəkildə təqdim etməyə xidmət edir. Bu əsərdə Azərbaycan ədəbiyyatının keçdiyi çoxəsrlik inkişaf yolu elmi-nəzəri cəhətdən araşdırılmış və əsaslı şəkildə dövrləşdirilmə aparılmışdır.

Azərbaycan ədəbiyyatı tarixinin dövrləşdirilməsi məsələsinə yenidən qayıdış da bu illərin mədəni-mənəvi intibahının hazırladığı prosesdir. Bu mənada XX əsrin doxsanıncı illəri Azərbaycan ədəbiyyatı tarixini yenidən formalaşdırmaq üçün konsepsiya axtarışları dövrü adlandırılır və sistemli ədəbiyyat tarixinin yaradılması yalnız ədəbiyyatşünaslığın deyil, bütövlükdə mənəviyyatşünaslığın, mədəniyyətşünaslığın və əslində milli ideologiyanın baş problemlərindən biri kimi ortaya çıxmasının zəruriliyi alim tərəfindən qeyd edilir. İlk dəfə olaraq milli ədəbiyyat tarixi məsələsinə müasirlik müstəvisində baxılmış, geniş və əsaslı təhlillər aparmaqla bu sahədə qarşıda duran əsas vəzifələr müəyyən edilmişdir.

Akademik İ.Həbibbəyli Azərbaycan ədəbiyyatı tarixinin Zaman ölçülərinə, dövlət müstəqilliyinə, ortaq türk təfəkkürünə, ədəbi şəxsiyyətlərə, mərhələlərə, minilliklərə və nəzəri baxışlara görə formalaşdırılması imkanlarını diqqətə çatdırmışdır. Alimin Azərbaycan ədəbiyyatı tarixçiliyi haqqındakı araşdırmaları, bu problemə dair elmi-nəzəri bünövrə funksiyasını yerinə yetirən əhəmiyyətli tədqiqatları yeni dövrləşdirmənin aparılmasına zəmin yaratdı. Odur ki, ədəbiyyat tarixçiliyi baxışlarında ədəbi-tarixi proseslərin reallıqlarına millilik anlayışı mövqeyindən yanaşma meyilləri və Azərbaycan ədəbiyyatı tarixinin dövrləşdirilməsi məsələlərində daha çox ümumi metodoloji prinsiplərə əsaslanaraq tarixilik aspekti əsas götürülmüşdür. Qeyd etmək lazımdır ki, təqdim olunan dövrləşmənin ana xətləri Azərbaycan ədəbiyyatının keçdiyi keşməkeşli yolun əsas inkişaf mərhələlərini özündə əhatə edir. Bununla da ilk dəfə Azərbaycan ədəbiyyatı tarixinin yenidən dövrləşdirilməsi zərurətini elmi ideya olaraq irəli sürmüş, elmi-nəzəri cəhətdən əsaslandırmışdır. Müstəqillik illərində zamana və ədəbiyyata obyektiv ədəbi-tarixi baxış Azərbaycan ədəbiyyatının dövrləşdirilməsi üçün yeni konsepsiyanın müəyyən olunması, hazırkı şəraitdə Azərbaycan ədəbiyyatı tarixinin dövrləşdirilməsi haqqında elmi konsepsiyanın hazırlanması zərurətini yaratdı. Bu, Azərbaycan ədəbiyyatı tarixinin çoxəsrlik inkişaf yolunun geniş ümumiləşdirilməsinə əsaslanan bir dövrləşdirmə təsnifatıdır. XX əsrin doxsanıncı illərində və XXI əsrin əvvəllərində meydana çıxan təşəbbüslər Azərbaycan ədəbiyyatı tarixinin dövrləşdirilməsi sahəsində konsepsiya axtarışlarının inkişaf etməkdə olduğunu nümayiş etdirir. Bu isə öz növbəsində milli ədəbiyyat tarixinin nəzəri-konseptual şəkildə dövrləşdirilməsi üçün yeni mərhələni hazırlamışdır. Müəllifin qeyd etdiyi kimi, Azərbaycan ədəbiyyatının çoxəsrlik tarixi inkişaf yolunun tədqiqi proseslərində Zaman və ədəbiyyat məsələsi həmişə əsas faktorlardan biri olmuşdur. Hansı bucaqdan baxılmasından asılı olmayaraq, Zaman faktoru yazıçı və şairlərin dünyabaxışında, ədəbi prosesin inkişaf etməsində mühüm rol oynamışdır. Hər yeni Zaman özünün yeni ədəbi axınlarını və ədəbiyyatını yaratmışdır. O da müəyyənləşdirilir ki, sovet ədəbiyyatşünaslıq elmində Zamana obyektiv elmi münasibət deyil, ideoloji yanaşmalar ön mövqeyə çəkildiyi üçün ədəbiyyat və dövran münasibətləri dəyərləndirilərkən gerçəklikdən çox hakim sinfin prinsiplərinə üstünlük verilmişdir. Ona görə də həmin mərhələdə Azərbaycan ədəbiyyatı tarixindən dövrlər üzrə bəhs olunarkən cəmiyyətin inkişafına ideoloji baxış əsas kimi qəbul edilərək sinfilik və proletar beynəlmiləlçiliyi kimi prinsiplərdən çıxış edilmişdir. Qeyd olunduğu kimi, ədəbiyyatımızın çoxəsrlik inkişaf yolu boyu müxtəlif əsrlərdə yaşayıb-yaratmış yazıçı və şairlərin əsərləri təhlil edilib qiymətləndirilərkən müəyyən edilmiş ideoloji prinsiplər nəzərə alınmışdır. Azərbaycan ədəbiyyatının təbii məntiqindən, daxili təkamülündən doğan sənət idealları ilə xalqın müxtəlif dövrlərdəki ümummilli ideallarının dialektik əlaqəsi, sintezi və vəhdəti nəzərdə tutulur. Müəyyənləşdirilmiş prinsiplər Azərbaycan ictimai-mədəni fikrininin və ədəbiyyatının əsrlər boyu keçdiyi inkişaf yolunun ana xətlərini və başlıca məzmununu, əsas inkişaf istiqamətlərini özündə əks etdirir. Bu baxımdan Azərbaycan ədəbiyyatı tarixinin təqdim olunan dövrləşdirmə modeli ümumdünya ədəbi proseslərinin inkişafı müstəvisində Azərbaycan xalqının çoxəsrlik tarixi ərzində milli ədəbiyyatın keçdiyi təkamül proseslərinin daxili inkişaf qanunauyğunluğundan, təbii məntiqindən doğan elmi təsnifatdır. Təsnifatda aşağıdakı dövrləşdirmə modeli verilmişdir 1. Qədim dövr Azərbaycan ədəbiyyatı: Etnosdan eposadək dövrü (ən qədim dövrlərdən VII əsrə qədər); 2. Azərbaycan yazılı ədəbiyyatının ortaq başlanğıc dövrü (VII-X əsrlər); 3. İntibah dövrü Azərbaycan ədəbiyyatı (XI-XII əsrlər); 4. Orta əsrlər Azərbaycan ədəbiyyatı (XIII-XVI əsrlər); 5. Azərbaycan ədəbiyyatında erkən realizm dövrü (XVII-XVIII əsrlər); 6. Azərbaycan ədəbiyyatının maarifçi realizm dövrü (XIX əsr); 7. Azərbaycan ədəbiyyatında tənqidi realizm və romantizm epoxası (XIX əsrin doxsanıncı illərindən Azərbaycanda sovet hakimiyyəti illərinədək); 8. Azərbaycan ədəbiyyatında sosialist realizm dövrü (1920-1960-ci illər); 9. Milli-mənəvi özünüdərk və istiqlal ədəbiyyatı mərhələsi. Modernizm (1960-1980-ci illər); 10. Müstəqillik dövrü çoxmetodlu Azərbaycan ədəbiyyatı (1991-ci ildən). Azərbaycan ədəbiyyatı tarixinin təqdim olunan dövrləşməsinin müəyyən olunmasında konkret mərhələlər arasında davam edən proseslər, onlar arasındakı əlaqələrlə yanaşı, köklü mühüm yeniləşmələrin, dəyişikliklərin baş verməsi də əsas götürülmüşdür. Ədəbiyyat tarixinin dövrləşdirilməsinin müasir konsepsiyası üçün müəyyən edilmiş meyarlar ədəbiyyatımızın çoxəsrlik tarixində baş vermiş ictimai-mədəni və ədəbi-tarixi proseslərin reallıqlarını, keçilmiş inkişaf yolunun özünəməxsusluqlarını obyektiv şəkildə özündə əks etdirir. Verilən dövrləşməyə görə, qədim dövr Azərbaycan ədəbiyyatı əsasən şifahi xalq ədəbiyyatını əhatə etməsi ilə səciyyələnir. Bu dövr milli şifahi bədii təfəkkürün möhtəşəm yekunu olan eposun - “Kitabi-Dədə Qorqud” dastanının yaranması ilə tamamlanır. Azərbaycan yazılı ədəbiyyatının ortaq başlanğıc dövrü kimi müəyyən olunan VII-X əsrlər mərhələsi ilkin ümumtürk ədəbi abidələri və Azərbaycanın ərəbdilli şairlərinin yaradıcılığı və ölkənin ərazisinin tərkib hissəsi olan alban yazılı ədəbiyyatının yaranması əsasında təqdim olunur. Xüsusi mərhələ kimi təqdim edilən intibah dövrü Azərbaycan ədəbiyyatı isə milli ədəbiyyatın epik vüsətinin yüksəlişi ilə birlikdə, qədim türk sivilizasiyası ilə islam mədəniyyətinin çarpazlaşmasından yaranan böyük ədəbiyyatdır. İlk dəfə olaraq anadilli yazılı poeziyanın yaranması və formalaşması ilə orta əsr Azərbaycan ədəbiyyatının özünəməxsus inkişafı müəyyən edilir. Alimin qeyd etdiyi kimi, ədəbiyyat tarixinin dövrləşdirilməsində feodal dövlətlərinin yaranması mərhələsi qədim dövr, feodalizmin inkişafı orta əsrlər dövrü hesab edilmişdir. XIX əsr Azərbaycan ədəbiyyatında maarifçi realizm dövrü kimi xüsusi mərhələ hesab edilmişdir. Bütövlükdə, Azərbaycan ədəbiyyatı tarixinin yenidən dövrləşdirilməsində konseptual baxımdan Azərbaycançılıq məfkurəsi, sivilizasiya faktoru, Azərbaycanda ədəbi cərəyanlar, ədəbi-tarixi prosesin reallıqları prinsiplərinə əsaslanılmışdır. XX əsrin əvvəllərində milli-demokratik hərəkatın qüvvətlənməsi, tənqidi realizm və romantizm ədəbi cərəyanlarının ədəbi-ictimai fikrə hakim olması bu mərhələni xüsusi bir dövrə çevirir. Bu dövr eyni zamanda sosializm quruluşunun çətin ictimai-siyasi şəraitində milli ədəbiyyatın təşəkkül tapması ilə yadda qalır. XX əsrin altmış-səksəninci illərində Azərbaycan cəmiyyətində, bunun əks-sədası olaraq ədəbiyyatda milli özünüdərkə qayıdış prosesləri getmiş və sovet dövrü Azərbaycan ədəbiyyatı çərçivəsində milli ədəbiyyatın müstəqil qolu yaranıb inkişaf etməyə başlamışdır. XX əsrin 60-cı illərindən sonra Azərbaycan ədəbiyyatının mənzərəsində yanaşı proseslər baş vermişdir. Ədəbiyyata gələn yeni “altmışıncılar” nəsli tənqidi realizm ənənələrini yaradıcılıqla “bərpa” etmişlər. Həmin mərhələdə bədii əsərlərdə xalqın milli maraqlarının və mənəvi dəyərlərinin əks etdirilməsinə meyil artmış, yazıçı və şairlərin vətəndaşlıq mövqeyi daha da qüvvətlənmişdir. Azərbaycanda aparılan dövlət siyasətinin maraqları və milli mənafelər üstündə köklənməsi ədəbiyyat haqqında elmin də inkişafına təkan vermişdir. Müstəqillik dövründə başlanan yeni cəmiyyət quruculuğunun bütün sahələr üzrə möhkəm təməlləri həmin mərhələdə qoyulmuş, ədəbi prosesdə ən yeni dövr ədəbiyyatına keçid prosesləri başlanmışdır. Məhz həmin keçid prosesi ədəbiyyatı öz daxilində ən yeni dövrü, çoxmetodlu müstəqillik dövrü Azərbaycan ədəbiyyatını hazırlayıb yetişdirmişdir. Həmin mərhələdə bədii əsərlərdə xalqın milli maraqlarının və mənəvi dəyərlərinin əks etdirilməsinə meyil artmış, yazıçı və şairlərin vətəndaşlıq mövqeyi daha da qüvvətlənmişdir. Akademik İsa Həbibbəylinin ədəbiyyat tarixçiliyi sahəsindəki tədqiqatlarında bu, tam şəkildə öz əksini tapmışdır. Xüsusən, XX əsrin əvvəllərinə aid olan bu sahədəki fəaliyyəti genişlənərək Nizami Gəncəvidən Məhəmməd Füzuliyə, Mirzə Fətəli Axundzadəyə, Cəlil Məmmədquluzadəyə, Məhəmməd ağa Şahtaxtlıya və Səməd Vurğuna... qədərki çoxəsrlik tarixi dövrlər onun yaradıcılığında əhatə edilir. Publisistik yaradıcılığını İsa Həbibbəyli elmi fəaliyyəti ilə paralel davam etdirərək, çoxsaylı araşdırma və məqalələrində, elmi-kütləvi janrda qələmə aldığı “Əsrin dörddə biri” (1992), “Naxçıvan Dövlət Universitetinin yetirmələri” (1992), “Araz üstə Universitet” (1996), “Naxçıvan Dövlət Universiteti. Salnamə” (1998), “Yusif Məmmədəliyev adına Naxçıvan Dövlət Universiteti” (2000), “Mustafa Kamal Atatürk və Naxçıvan” (2006), “İntibahın 15 ili” 2(2010) və s. kitablarında davam edir. Akademik İsa Həbibbəylinin elm təşkilatçılığı, elmi kadrların hazırlanması sahəsində mühüm xidmətləri olmuşdur. Onun elmi rəhbərliyi ilə 1998-2018-ci illər ərzində Azərbaycan ədəbiyyatşünaslığının köklü problemlərinə həsr olunmuş 70-ə qədər fəlsəfə doktorluğu, elmi məsləhətçiliyi ilə 6 elmlər doktorluğu dissertasiyaları müdafiə olunmuşdur. Akademik İsa Həbibbəylinin rəhbəri, məsləhətçisi və rəsmi opponenti olduğu alimlər Azərbaycan filoloji fikir tarixinin inkişafında mühüm rol oynayan şəxsiyyətlərdir. Alimin elmi yaradıcılığı və təşkilatçılığı bir-birini tamamlayır. Akademik İsa Həbibbəyli Naxçıvan Dövlət Universitetinin rektoru kimi fəaliyyəti illərində pedaqoji fəaliyyəti ilə respublikada ali təhsil quruculuğunun inkişafında mühüm xidmətlər göstərmiş, yazdığı elmi və pedaqoji əsərlər elmimizin, təhsilin inkişafında mühüm rol oynamışdır. Akademik İsa Həbibbəylinin elm tarixinə və elmin müasir inkişafı problemlərinə, habelə Milli Elmlər Akademiyasının fəaliyyətinə həsr olunmuş tədqiqatları elmi mühitin yaranmasına təkan vermişdir. Eləcə də Azərbaycan Milli Elmlər Akademiyasında elm sahələrinin inkişafı, “Elm haqqında” Qanun ətrafında gedən mübahisələr və müzakirələrdə yaxından iştirak edərək, bu elmi missiyanı ardıcıl olaraq yerinə yetirir. Elmi təfəkkürlə yanaşı, bədii təfəkkürə də önəm verən İsa Həbibbəylinin “Əsərləri”nin 10-cu cildinə şeirləri, mahnıları, esseləri, hekayə, etüd, tərcümə və bədii publisistikası daxildir. Müəllifin iri həcmli (804 s.) “Naxçıxandan Naxçıvana” (2015), “Naxçıvan xalçaçılığı: ənənə və müasirlik” (2017), “Duzdağ mozaikası” (2017) monoqrafik araşdırmalarında çağdaş dövrün əsl “Naxçıvannamə” epopeyasını yarada bilmişdir. Akademik İsa Həbibbəyli eyni zamanda üç cilddə hazırlanmış fundamental “Naxçıvan tarixi”nin (2013-2015) həmmüəllifi və elmi redaktorlarından biridir.

Akademik İsa Həbibbəyli Humanitar və ictimai elmlərin inkişaf etdirilməsində, mədəniyyət və ictimai-siyasi həyatımızda nüfuzlu şəxsiyyətdir. Belə ki, 1997-2005-ci illərdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin, 2005, 2010, 2015-ci illərdə Azərbaycan Respublikası Milli Məclisinin deputatı seçilmiş, beşinci çağırış üzrə ölkə parlamentinin Elm və Təhsil Komitəsinin sədri kimi ictimai-siyasi fəaliyyət göstərir. Millət vəkili Azərbaycan Respublikası Milli Məclisinin iclas və sessiyalarında çıxışlar edir, Azərbaycan Respublikasinin “Elm haqqında” (2015), “Məktəbəqədər təhsil haqqında” (2016), “Peşə təhsili haqqında” (2017) qanunlarının hazırlanıb qəbul olunmasına bilavasitə rəhbərlik edir.

Azərbaycan Milli Elmlər Akademiyasının vitse-prezidenti kimi çalışdığı dövrdə yüksək təşkilatçılıq bacarığı nəticəsində humanitar elmlər sahəsində mühüm işlər görülmüşdür. Azərbaycan dilinin qorunması, inkişaf etdirilməsi istiqamətində apardığı işlər Azərbaycan dilinin daha dərindən öyrənilməsinə imkan yaradır. Xüsusilə, Beynəlxalq Türkoloji qurultayın keçirilməsi, Orfoqrafiya qaydalarının prinsiplərinin hazırlanması və ümumi müzakirəyə verilməsinə bilavasitə rəhbərlik etmişdir. Eləcə də terminoloji lüğətlərin tərtibi və Terminologiya Komissiyasının xətti ilə çıxan “Terminologiya məsələləri” toplsunun hazırlanmasına rəhbərlik edir. Hər bir alimə yaradıcı bir insan kimi həssaslıqla yanaşır. Bu xüsusiyyət akademiya əməkdaşlarında özünə inam hissini artırır və məhsuldar yaradıcılıq yoluna aparır. Alim çoxcəhətli elmi fəaliyyət sferasında və ölkədə gedən ictimai-mədəni və elmi-ədəbi proseslərdə yaxından və fəal iştirak etməklə əsl mənada tədqiqatçılıq, ziyalılıq və vətəndaşlıq borcunu ardıcıl olaraq yorulmadan həyata keçirməkdə davam edir. Akademik İsa Həbibbəyli elmdə, mədəniyyət və cəmiyyət həyatında nüfuzlu adını nadir istedadı, geniş və miqyaslı fəaliyyəti, universal və sanballı elmi yaradıcılığı, tükənməz enerjisi və əməyi sayəsində qazanmışdır. Bu gün də ictimai fikrimizin görkəmli nümayəndəsi kimi bu mühiti hərəkətə gətirən və idarə edən bir rəhbər olaraq son dərəcə ağır və məsuliyyətli bir missiyanı həyata keçirir. Alimin yarım əsrin mətbu yazılarını, yaradıcılığını izlədikcə, göz önündə görkəmli bir alimin, şəxsiyyətin, ədəbiyyatşünas və tənqidçinin, elm və maarif təşkilatçısının, ictimai-siyasi xadim və mütəfəkkirin yaradıcılıq yolu canlanır. Bu yaradıcılıq yolu xalqımızın mənəvi dəyərlərinin qorunub gələcək nəsillərə catdırılması yoludur. Bu yolda, elmi yaradıcılığının məhsuldar dövründə, ömrünün bu barlı cağında İsa müəllimin 70 illik şərəf yolunu təbrik edirik.

**Sayalı SADIQOVA,**
**Azərbaycan Respublikası**
**Nazirlər Kabineti yanında Terminologiya**
**Komissiyasının sədr müavini.**